Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir

# Peter və Duanın Gücü



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Həvari Peter başqalarına İsa haqqında danışmaq üçün ölkənin hər tərəfinə səyahət edirdi. Bir gün Peter Lod şəhərinə gəldi, o, orada səkkiz il yataqda yatan iflic adama baş çəkdi.



Peter dedi: “İsa Məsih sənə şəfa verir”. “Qalx və yatağını yığışdır”. Adam dərhal ayağa qalxdı. Bunu görən adamlar Rəbbə tərəf döndülər.




Yaxınlıqdakı Yafo şəhərində adamlar kədərli idilər. Tabita adlı məsihçi qadın təzəcə ölmüşdü. Onun dostları qəm içində
onun cəsədini dəfnə hazırladılar, sonra birlikdə yas tutduqları yuxarı otağa qoydular.



Tabitanın dostları Peterin yaxınlıqda olduğunu eşitdilər. Onlar Peterin dərhal Yafoya gəlməsini xahiş etdilər.



O, evin yuxarı mərtəbəsinə çıxanda dul qadınlar ona Tabitanın onlar üçün tikdiyi köynəkləri göstərdilər. Hamı

ağlayırdı.

Amma Peter onların hamısını otaqdan çıxartdı və diz çökərək dua etdi. Bundan sonra ölüyə tərəf dönüb dedi: “Tabita, qalx!” Qadın gözlərini açıb Peteri görən kimi dik oturdu.





Peter əlini uzadıb onu ayağa qaldırdı və sonra müqəddəslərlə (məsihçilərlə) dul qadınları çağırdı. Tabitanı sağ-salamat onların qarşısına çıxartdı.  Bu xəbər bütün Yafoya yayıldı və çox adam Rəbbə iman gətirdi.


Peter isə xeyli gün Yafoda, dəniz kənarında bir evdə qaldı.
Bir gün Peter dua
etmək üçün evin damına çıxdı.


Əgər o, şəhər divarlarından
baxsaydı, üç səyahətçinin
onu axtarmaq üçün
gəldiyini
görərdi.


Bu adamlar Allaha ibadət edən
Korneli adlı Roma əsgərinin
xidmətçiləri
idi.
Korneli öz
xidmətçilərini
Peterin yanına
göndərmişdi, ...

... çünki mələk görüntüdə ona demişdi: “Peteri çağırtdır.  O, dabbaq Şimonun dəniz kənarındakı evində qonaqdır. O, sənə nə etmək lazım olduğunu deyəcək”.



Peter evin damında dua edərkən Allah ona görüntü verdi.  O gördü ki, göy yarıldı, böyük mələfəyə bənzər bir şey dörd küncündən asılaraq yerə endi. Onun üstündə hər cür dördayaqlılar, sürünənlər ...



... və göydə uçan quşlar var idi. Peter bu şeylərin “natəmiz” olduğunu deyə bilərdi. Bu, o demək idi ki, dindar Yəhudi onları yeyə bilməzdi. Ona bir səda gəldi: “Qalx, Peter, kəs və ye!”



Peter Ona dedi: “Əsla, ya Rəbb! Mən heç vaxt nə haram, nə də murdar bir şey yeməmişəm”.  Səda ikinci dəfə yenə gəldi və Peterə dedi: “Allahın halal dediyi şeylərə sən haram demə”.



Bu, üç dəfə təkrarlanandan sonra o şey dərhal göyə çəkildi.



Peter bu görüntünün mənasının nə olduğunu başa düşmürdü.  O, bu haqda düşünərkən, Allah üç kişinin onu axtardığını və onun onlarla getməli olduğunu dedi.



Üç kişi müqəddəs mələyin Korneliyə onu gətirmək üçün adam göndərdiyini deyəndə Peter bildi ki, Allah onu aparırdı. Ertəsi gün o və altı dost Kornelinin evinə getdilər.





Ola bilsin ki, Peter qeyri-yəhudinin evinə gedərkən o, Allahın bütün insanları sevdiyini, Allahın bütün millətlərin İsanın dünyanın Xilaskarı olduğunu bilməsini istədiyini başa düşdü.  Peter oraya çatanda Korneli onun ayağına düşüb səcdə etdi.



Peter isə onu ayağa qaldıraraq dedi: “Qalx, mən də sənin kimi insanam”. Sonra o, evdə olan adamların hamısına dedi:



“Bilirsiniz ki, Yəhudilərə hər hansı bir yadelli ilə ünsiyyət yaratmaq, onlara qonaq getmək qadağandır”.



Amma insanları haram və murdar saymamağı Allah mənə göstərdi.




Peter bu qeyri-yəhudilərə dedi ki, İsa çarmıxda ölən və dünyanın Xilaskarı olmaq üçün yenidən dirilən Allahın Oğludur.


Onda Müqəddəs Ruh onların üzərinə endi və onlar Allahı izzətləndirməyə başladılar.  Peterin altı Yəhudi dostu heyrətləndi.  Bu, Əllinci Gün bayramında olduğu kimi idi.


Müqəddəs Ruhun hədiyyələri qeyri-yəhudilərin də üzərinə tökülürdü. Sonra Peter yeni iman edənləri İsanın adı naminə vəftiz etdi.

Yerusəlimdə məsihçilər Peteri qeyri-yəhudilərə baş çəkdiyinə görə danladılar.  Beləliklə, Peter onlara özünün və Kornelinin duada gördükləri görüntülər haqqında danışdı.



Bu şeyləri eşidəndə Yerusəlimdəki məsihçilər susdular.  Onlar dua vasitəsilə məsihçi imanlı cəmiyyətinə Allahın sevgisinin hər kəs üçün olduğunu göstərdiyinə görə Allahı izzətləndirdilər.



# Peter və Duanın Gücü

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Həvarilərin İşləri 9-12

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**